# Ər-arvad münasibətlərinə kənar şəxslərin müdaxiləsi və bunun mənfi nəticələri

**Simuzər Alim qızı Hacıyeva**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Gəncə Dövlət Universiteti*
**E-mail:** simuzer.haciyeva.93@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
psixol.ü.f.d., dos. Ü.A. Əfəndiyeva

**Açar sözlər:** gənc ailə, ailə münasibətləri, mübahisə, müdaxilə etmək
**Ключевые слова:** молодая семья, семейные отношения, полемика, вмешиваться
**Key words:** young family, family relationships, controversy, intervene

Tarixən aktual mövzulardan biri olan ər-arvad arasındakı problemlər, qaynana-gəlin münasibətləri bu gün də öz yerini tutur. Hələ ki, bu problemlərə digər kənar şəxslərdə müdaxilə edirsə çıxılmaz hallara da rast gəlinir.

Yeni qurulan ailənin ilk günləri, ilk ayları üzvlərin bir birini tanıması, bir birinin həyat tərzinə öyrəşməsi mərhələsidir. Ola bilər ki, oğlan və qız sevgili və ya nişanlı olduğu müddətdə çox vaxt keçirə bilməsinlər. Amma ailə mühitində bir-birini tanıma, bir birinin xasiyyətinə bələd olma ər və arvadın münasibətlərinin mühüm mərhələsidir. Çünki bir evdə yaşamaq tamam başqa məsələdir. Hər yeni açılan günə birlikdə oyanmaq, birlikdə günü sonlandırmaq ailə münasibətlərində bir-birini tanımanın ən gözəl anlarıdır. Qarşındakı insanın yeməyi belə necə yeməsindən tutmuş, oturuşundan duruşuna kimi hər şeyi, onun nəyi necə sevib sevmədiyini məhz ailə daxilində, ev şəraitində mənimsəmək olar. Bu mərhələdə artıq ümumi maraqlarla, şəxsi maraqların toqquşması prosesi başlanır. Sərhədləri müəyyənləşdirmək, qorumaq məsələləri ortaya çıxır. Kimin evdə sərhəddi harada başlanır, harada bitir, kimin duracağı yer haradır, kim əşyasını hara qoyacaq, evin hansı hissəsi kimə aiddir və s. Biologiyada buna "ərazi mənimsəmə" prosesi deyirlər.

Ən sadə inciklikər, toqquşmalar məhz bu mərhələdə başlayır. Yeni qurulan ailə və yeni bir-birini tanımağa başlayan 2 insan... Yəni, bu proseslər fonunda bir-birini tanıma, uyğunlaşma mərhələsində çəkişmələr qaçılmazdır və bu cütlüklərin xarakterindən, eyni zamanda yaxın çevrənin müdaxiləsindən asılı olaraq bir neçə il davam edə bilər. Əgər ailənin yeni üzvü olan gəlin böyük bir ailə içərisinə gəlirsə, bu zaman xırda problemlər bir az da dərinləşə bilər. Evdə qayınana-qayınata varsa, hətta qayın və baldız da olursa, ailə üzvlərinin sayı 6-8 nəfərə çatır, buda problemlərin 10 dəfə daha artıq meydana gəlməsinə, çətinliklərin meydana gəlməsinə şərait yaradır. Çünki ailə üzvlərinin sayı artdıqca uyğunlaşma prosesi də uzanacaqdır.

Ər-arvad arasındakı problemlərə qaynananın və ya baldızın qarışması vəziyyətin və problemin uzanmasına səbəb olur. Çox yaşanan hallardan biri də ər-arvad mübahisə etdikləri yerdə qayınananın otağa daxil olması, öz oğlunun tərəfini saxlaması, gəlinin üstünə düşməsi, oğlunu mübahisəyə təşviq edən sözlər deməsidir. Əgər kiçik mübahisə edəndən sonra barışılacaq bir hal var idi isə, artıq anasının təşviqi ilə qəlbqırıcı sözlər deyən oğlan və qəlbi qırılan gəlin arasında uzun müddət davam edən inciklik, küsülülük yaranır. Tanıdığım bir neçə ailələrdən buna aid misallar gətirə bilərəm ki, hətta qaynana oğlu və gəlini arasındakı mübahisədən sevinir, axşam olanda  başqa otaqda yatması üçün oğluna döşək salır. Oğluna gəlinin qulluq etməsinə

icazə vermir. Bir növ burada oğulu gəlinə qısqanmaq prosesi baş verir. Böyüdüb boya başa çatdırdığı oğluna başqasının, yad qızının qulluq etməsini, onunla maraqlanmasını istəmir.

Evliliyin ilk dönəmində gənclərə sərbəstlik vermək, onların bir-birinə uyğunlaşmasına imkan yaratmaq vacib şərtdir. Bir nümunəyə diqqət yetirək. Vəhşi tayfaların yaşadığı Okeaniyada ər-arvad arasında ixtilaf yarananda, iş boşanma həddinə çatanda onları bir ay müddətinə gediş-gəlişi olmayan adaya yollayırlar. Bir ayın tamamında onlar barışaraq geri dönürlər.

Gənc ailə təklikdə olanda məsələlərini həll edib barışırlar, çünki evliliyin ilk mərhələlərində incikliklərin, küsüb-barışmaların ötəri olduğu bir dönəmdir. Amma üçüncü, dördüncü şəxslərin müdaxiləsi ən kiçik incikliyin böyüməsinə, mübahisəyə çevrilib vəziyyətin daha qəlizləşməsinə, hətta sonda boşanmaya belə gətirib çıxara bilir. Günümüzdə ən xırda məsələdən qaynaqlanıb böyüyün və ayrılan nümunələr vardır.

Əgər gəlin ərinin xoşuna gəlməyən bir hərəkət etsə, yaxud söz desə və bunu ailə üzvlərindən kimsə görsə, o zaman ər öz hegemonluğunu göstərmək istəyəcəkdir. Anasının və bacısının yanında gənc xanımını alçaldacaq. Təklikdə onun hər nazını qəbul edən həyat yoldaşı anasının və bacısının yanında onu sındırır, ona qarşı səsini qaldırır. Sonda isə xırda məsələ dava-dalaşa və digər ailə üzvlərinin, yaxın çevrənin müdaxilə və müzakirəsinə gətirib çıxardır. Bütün hallarda yaxşı olardı ki, gənclər öz problemlərini kimlərisə qarışdırmadan və ya kimlərinsə onlara qarışmalarına imkan vermədən özləri həll etsinlər. Əgər iş valideynlərə gəlib çatsa belə yenə problemləri gənclər özləri həll etməlidir. Çünki bəzən valideynlər odun üstünə su tökmək yerinə alovu daha da qızışdırırlar. Oğul anası oğlunun tərəfini tutur “o kişidir, nə desə qanundur, gəlinin nə haqqı var onun sözünün üstünə söz desin, səsini çıxartsın” deyir. Bəzi qız anaları isə, “heç kəs mənim qızıma söz deyə bilməz” deyir. Və beləliklə, qohumlar arasında pərdə götürülür. Çox vaxt gənclər barışır, amma ailələr arasındakı inciklikləр davam edir.

Burada ən doğru davranış budur ki, valideynlər desinlər ki, siz artıq özünüz ailə başçısısınız, valideyn olacaqsınız, öz məsələlərinizi özünüz yoluna qoymalısınız. Yoxsa oğulu və ya qızı evləndirib sonra da onu uşaq gözündə görüb, hər bir işlərinə, məsələlərinə qarışmaq, hər problemlərini valideynlərin özləri həll etmələri doğru deyildir. Hər ailədə baş verən kiçik mübahisələr evliliyin duzu və bibəridir. Bu kiçik mübahisələr olmasa, gənc xanım və bəy bir-birini yaxşı tanıya bilməz. Çətinlik görməsələr, çətin anlarda problemlərdən necə qurtulmaq lazım gəldiyini anlamazlar.

Gənclərə başa salmaq lazımdır ki, onlar artıq uşaq deyillər, ailə sahibidirlər, yeri gələndə özlərini müdafiə etmələrini, ixtilafları özləri həll edə bilməlidirlər. Böyük sözü dinləmək bizim mental dəyərimizdir. Ehtiyac yaranarsa, məsləhət vermək ana-atanın borcudur. Yalnız bu məsləhət onları qızışdırmaq yox, sakitləşdirmək üçün verməlidirlər. Hər mübahisə, söz-söhbət yarananda ana oğluna “qızdan çox qız var” deməməlidir. Oğlunun ailəsinə hər zaman sahib çıxmasını başa salmalıdır.

Evdə digər bir problem yaradan kənar şəxs baldız olur ki, o da çox vaxt gəlindən söz alıb, anasına və ya qardaşına deyir, heç nədən problem yaradır. Yeni ailəyə adaptasiya olmağa çalışan gəlin özünə yaxın rəfiqə baldızı görür. Hər sözünü, sirrini onunla bölüşür, əgər qayınanasıyla anlaşılmaz problemi olursa, gileyini baldızına deyir. Çox hallarda isə baldız bu söz söhbətləri anasına çatdırır. Qayınana gəlin arasında incikliyin yaranmasına gətirib çıxardır. Professor A.N. Abbasovun “Milli əxlaq və ailə etikası” kitabında da qeyd etdiyi kimi: “ailədə gəlin qayınana ixtilafları yaranmışsa, baldızlar analarının tərəfində dayanır, qardaşı arvadları ilə dilləşirlər. Baldız gəlin münasibətləri də ailənin psixoloji iqliminin pisləşməsinə səbəb olur.

Gənclər xoşbəxt olmaq, bəxtiyar yaşamaq üçün ailə qururlar. Onlar ailəni ona görə yaratmırlar ki, necə deyərlər, gen dünyanı özlərinə dar etsinlər, problemlər içərisində boğulsunlar,

ata-anaları, qohum əqrəba, əri(arvadı) ilə münasibətləri gərginləşdirsinlər" (1, s. 280-281).

Ev daxilindən başqa problemlərə qarışan kənar şəxslər də vardır ki, bu da gəlinin rəfiqəsi olur. Təzə ailə qurmuş gəlin evində olan problemləri rəfiqəsiylə bölüşür, ona yol göstərməsini istəyir. Ailəyə bələd olmayan rəfiqə isə yanlış yönləndirmələr edir: "Yoldaşın belə deyəndə səndə bunu de, filan sözü deyəndə, cavabını belə ver. Özünü qaynananın yanında alçaltma. Lazım gəldikdə onu yerində oturmağı bacar!" və s. Və sonda rəfiqəsinin dolduruşuna uyan gəlin evdə həyat yoldaşı ilə yersiz dava salır. İstər gəlin, istərsə də kişi bir şeyi dərk etməlidir ki, kiminsə sözü ilə ailədə narazılıq yaratmaq, mübahisə etmək yaramaz.

Ailə müqəddəsdir, ailə qırılmaz bağdır. Əgər ər-arvad bir birinə möhkəm zəncir olub bağlansalar, heç kəs onların münasibətlərinə müdaxilə edə bilməz. Problemlərini dörd divar arasında həll etsələr daha çox narazılıqla üzləşməzlər.

Əbəs yerə deyilmir ki, ailə kiçik bir dövlətdir. Bu dövləti dağıtmaq yerinə gənc xanım və bəy güclü bir çinar ağacı kimi olub torpağa, öz ocaqlarına kök salmalı, valideynlər isə bu çinarın yaşaması üçün, köklərinin möhkəmlənməsi üçün ona su töküb, yeri gələndə də budamalıdırlar ki, ömrü uzun olsun...

**Məqalənin aktuallığı.** Ailə cəmiyyətin bünövrəsidir. Ailəni qurarkən gənclər ciddi düşünməli, ər-arvadlıq həyatında bir-birinə münasibətdə mehriban, qayğıkeş olmalı, güzəştə getməyi bacarmalı, bir-birlərini başa düşməli, ailənin dayaqlarının möhkəm olmasına çalışmalı, Vətənə layiq övladlar böyütməlidirlər. Məqalədə də məhz bu sahədə mövcud problemlərdən və onun mümkün həlli yollartından bəhs olunduğundan on katual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə ailədə ər-arvad arasındakı qarşılıqlı münüsibətlərdə yaranan probıemlərdən, ailəyə kənar müdaxilələrdən və bunların yarada biləcək nəticələrdən söhbət açılır, münaqişələrin qarşılıqlı anlaşma şəraitində aradan qaldırılma yolları göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqaləədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası: universitetlərin magistratura səviyyəsi üçün dərslik. Bakı, 2016. 324 s.

2. Abbasov A.N. Ailə pedaqogikası: ali təhsil müəssisələri üçün dərslik. Bakı, 2019. 272 s.

**С.А. Гаджиева**

## Вмешательство посторонних людей в супружеские отношения и его негативные последствия

## Резюме

Семья - это основа общества. Молодые люди при вступлении в брак должны серьезно задуматься, быть добрыми и заботиться друг о друге в супружеской жизни, уметь идти на компромисс, понимать друг друга, стараться укрепить семью, и воспитывать детей, достойных Родины. В нашей стране сотни, тысячи счастливых семей. Однако существуют и неблагополучные семьи. Причиной неудач в некоторых случаях являются

сами супруги, а в некоторых случаях посторонние. В статье описывается вмешательство посторонних людей в супружеские отношения и его негативные последствия.

**S.A. Hajiyeva**

## Outsiders intermarriage and its negative consequences

## Summary

The family is the foundation of society. Upon marriage, young people should seriously think, be kind and take care of each other in a married life, be able to compromise, understand each other, try to strengthen their families, and raise children worthy of their homeland. There are hundreds, thousands of happy families in our country. However, there are dysfunctional families. The cause of failure in some cases are the spouses themselves, and in some cases, outsiders. The article describes the interference of strangers in marital relations and its negative consequences.

**Redaksiyaya daxil olub:** 08.02.2020